# Şuşanın keçmişi kimi, gələcəyi də parlaq olacaq




***Bu il adı qəlbimizdə xoş duyğular yaradan, şan-şöhrəti ilə qürur duyduğumuz, xalqımızın qəhrəmanlıq və yenilməzlik rəmzi olan, milli mədəniyyət və mənəviyyatımızın tacı, gözəl və bənzərsiz şəhərin – Şuşanın adı ilə bağlıdır. Azad ölkəmizin vətəndaşı, ziyalısı olaraq, hamı kimi mən də buna çox sevinirəm.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bildirib ki, xalqımız 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcək. Pənahəli xanın təməlini 1752-ci ildə qoyduğu bu tarixi şəhərin əlamətdar yubileyi böyük təntənə ilə keçiriləcək. Cənab İlham Əliyev bu şanlı hadisəni nəzərə alaraq və Şuşanın bərpasını sürətləndirmək məqsədilə yeni ili "Şuşa İli" elan edibdir.

Qeyd etmək lazımdır ki, bu təşəbbüs, möhtərəm Prezidentin Şuşaya göstərdiyi davamlı diqqət və qayğının növbəti təzahürüdür. Şuşa, həqiqətən, dərin hörmət və ehtirama layiqdir. Əslində, Azərbaycanın hər yeri, hər bir guşəsi gözəldir. Amma, Şuşa bizim hər birimiz üçün xüsusi məna və əhəmiyyət kəsb edir.

Mənə elə gəlir ki, Şuşa ilə bağlı ən gözəl və məhrəm fikirləri möhtərəm Prezidentimiz ötən ildəki səfərlərindən biri zamanı demişdir: "Şuşa Azərbaycan xalqının qəlbində xüsusi yerə malikdir. Şuşa Qarabağın tacıdır, Şuşa təkrarolunmaz şəhərdir. Şuşanın yerləşməsi, təbiəti, havası, iqlimi, tarixi abidələri, dini abidələrimiz, şəhərin memarlıq ansamblı bizim milli sərvətimizdir. Şuşanı biz qorumalıyıq, qoruyacağıq. Biz Şuşaya qayıtmışıq və bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaqdır".

Mən Bakı Dövlət Universitetində Azərbaycan ədəbiyyatı fənnini tədris edirəm. Xalqımızın böyük ədibləri Molla Pənah Vaqif, Xan qızı Natəvan, Nəcəf bəy Vəzirov, Yusif Çəmənzəminlinin yaradıcılığı barədə hər dəfə böyük həvəslə sevimli tələbələrimə söz açarkən bu böyük sənətkarların Şuşa əbədi mühitindən çıxdıqlarını mütləq qeyd edirəm.

Şuşa, eyni zamanda milli musiqimizin beşiyidir! Dahi bəstəkarımız Üzeyir bəyin, böyük müğənnimiz Bülbülün, görkəmli bəstəkar Süleyman Ələsgərovun vətənidir. Şuşanın bütövlükdə mədəniyyətimizə verdiyi böyük töhfələri saymaqla qurtarmaz.

Bəli, 2022-ci ilin "Şuşa İli" elan edilməsi xalqımız üçün çox əlamətdar hadisədir. Zərrə qədər şübhə etmirəm ki, biz Şuşanın keçmişi ilə fəxr duyduğumuz kimi, bu şəhərin sabahı, parlaq gələcəyi ilə də fəxr edəcəyik.

Düşünürəm ki, illər, onilliklə, qərinələr keçəcək, şəhərin mədəni həyatı daha da zənginləcək, adı və şöhrəti daha da artacaq. Burada həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə bir-birindən maraqlı tədbirlər – festivallar, müsabiqələr keçiriləcək.

Bir məqamı xüsusi vurğulamaq istəyirəm. Şuşa şəhəri xalqımızın ləyaqət və şərəf rəmzidir. Azərbaycan xalqı qırx dörd günlük Vətən müharibəsində külli Qarabağı və onun gözü olan Şuşanı düşməndən azad etməklə tarixi zəfər qazandı və bütün dünyaya göstərdi ki, Şuşa bizim döyünən ürəyimizdir, bundan sonra heç bir qüvvə bizi Şuşadan ayıra bilməz.

Biz bu gün qədim tariximizin ən şərəfli dövrünü yaşayırıq. Azərbaycanın şanlı qələbəsi ilə bugünkü və gələcək nəsillər əbədi fəxr edəcəklər. Bu parlaq qələbəni bizə uca Allahın lütfü ilə xalqımızın sevimli lideri, Ali Baş Komandan İlham Əliyev qazandırıb.

Bu qələbəni bizə həm də Şuşanın sıldırım qayalarında qeyri-adi hünər və qəhrəmanlıq dastanı yazan Azərbaycanın igid əsgər və zabitləri bəxş ediblər. Onların hər biri qarşısında baş əyirəm! Şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərimizin tezliklə sağalmasını arzulayıram.

Bu gün Şuşa gözlərimizin önündə təkcə ölkəmizin deyil, bütün türk dünyasının mədəniyyət mərkəzlərindən birinə çevrilir. Bundan necə qürur duymamaq olar?! Əminəm ki, Şuşa bütün türk xalqlarını bir-birinə qırılmaz mənəvi tellərlə bağlayacaq.

***Asifə ƏLİYEVA,***
***Bakı Dövlət Universitetinin dosenti,***
***filologiya üzrə fəlsəfə doktoru***

Xalq qəzeti .- 2022.- 11 yanvar.- S.6.